**Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 2001-ci il 3 aprel tarixli 112-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında Saziş"in icrasını və ikitərəfli əlaqələrin genişləndirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin:

**Komissiyanın həmsədri**

*Ramin **Quluzadə*** – Azərbaycan Respublikasının *nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri*[1]

**Komissiyanın üzvləri:**

Xələf Xələfov – Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Sahil Babayev – Azərbaycan Respublikasının iqtisadiyyat ~~və sənaye~~ nazirinin müavini[2]

Azər Bayramov – Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Natiq Abbasov – Azərbaycan Respublikası energetika nazirinin müavini[3]

Sahib Ələkbərov – Azərbaycan Respublikası vergilər nazirinin müavini

~~Musa Pənahov – Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini~~

Səfər Mehdiyev – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

Xəqani Abdullayev – Azərbaycan Respublikası *Mərkəzi Bankı sədrinin müavini*

*Murad Nəcəfbəyli* – Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Estoniya Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 noyabr 2011-ci il
1850

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**)
2. 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644)**
3. 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027)**
4. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )
5. 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518)**
6. 7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521)**

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027)** ilə 1-ci hissəsində "**rabitə və informasiya texnologiyaları naziri**" sözləri "**rabitə və yüksək texnologiyalar naziri**" sözləri ilə əvəz edilmişdir.

07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518)** ilə 1-ci hissəsində "**Əli Abbasov**" sözləri "**Ramin Quluzadə**" sözləri ilə, "**Mərkəzi Bankının İdarə Heyəti sədrinin müavini** " sözləri "**Mərkəzi Bankı sədrinin müavini**" sözləri ilə və "**Tofiq Zülfüqarov**" sözləri "**Murad**

**Nəcəfbəyli**” sözləri ilə əvəz edilmişdir.

7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 8 avqust 2017-ci il, № 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 8, maddə 1521**) ilə 1-ci hissədə “**rabitə**” sözündən əvvəl “**nəqliyyat,**” sözü əlavə edilmişdir və həmin hissədən “**Musa Pənahov – Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini** ” sözləri çıxarılmışdır.

[2] 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti 29 iyun 2014-cü il, № 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 6, maddə 644**) ilə 1-ci hissəsində **“Sevinc Həsənova - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini”** sözləri “**Sahil Babayev - Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye nazirinin müavini** ” sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Respublika” qəzeti, 17 avqust 2016-cı il, № 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 8, maddə 1384** ) ilə 1-ci hissədən “**və sənaye**” sözləri çıxarılmışdır.

[3] 10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Respublika” qəzeti, 12 fevral 2014-cü il, № 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 2, maddə 112**) ilə 1-ci hissəsində “**sənaye və energetika nazirinin müavini** ” sözləri “**energetika nazirinin müavini** ” sözləri ilə əvəz edilmişdir.